qardaş arasında" şeirlərindəki bəzi beyt və misralarda bu yaxınlığı daha aşkar müşahidə etmək olur. Məsələn, onun "Qorxum budur oyun ola, millət yenə qoyun ola", misraları Sabirin "Bütün işlər oyun oldu, səbəb boynu yoğun oldu" misralarını ani olaraq yada salır. Eləcə də "Tapsa millət yavan aş, özləri bozbaş yesinlər, yenə bir nisbət ola aş ilə bozbaş arasında" misraları Sabirin "Nuş olur canıma ki, xasə o hangamda kim, Mən yeyəm xırda uşaqlar baxa, ağlaşa ətə"!!! misraları ilə həmahəngdir. Şəhriyar "Türk dili" şeirində də Sabiri "Süfrəli, qəlbi geniş" bir şair kimi qiymətləndirir.

M.Ə.Sabir sənət və şəxsiyyətinə böyük sevgi və bağlılığını, Şəhriyarın "Sabirin xoruzu" şeiri bariz şəkildə nümayiş etdirir, onun Təbriz dövrü yaradıcılığının mahiyyətinə aydınlıq gətirir və yaradıcılığının bu mərhələsində ruhən Sabirə - Hophopa bağlılığı aşkar görünür:

Sübh xəyalilə xoruzlanarkən,
Mən də Hophop tək bir ağız banladım...

Bu misralar Sabirin "Elə bilirdim ki, dəxi sübh olub" şeiri ilə bir üslubdadır.

Zülmə, zalimə öz etirazını bildirən Şəhriyar yaradıcılığının bu mərhələsində həyata satirik şair M.Ə.Sabir gözü ilə baxır, "müşkülləri asanlamağa", "Təbrizi Tehranlamağa", "Xəlqi oyatmağa", "Küfr müsəlmanları kafirləyərək" onları müsəlmanlaşdırmağa cəhd etməyə başlayır və öz şeirini Sabirsayağı yekunlaşdırırdı.

M.Ə.Sabir satirasının ruhundan gələn nəfəsin çırpıntıları Şəhriyarın "Çapalayır ürək sinəmdə", "Məlul yazıq, neyləsin?", "Yaza bilməyirəm", "Qara basdı hekayəsi", "Qəmlə atış-barış", "Yol göstərən, yol gedən" qəbildən onlarla şeirlərində də hiss olunur. Təsadüfi deyildir ki, onun "Yol göstərən, yol gedən" şeirinin aşağıdakı misraları necə də Sabirin şeirlərini xatırladır: Anlamayan xar olmaz Yol göstərən olmasa, Yol gedən hüşyar olmaz".

M.Ə.Sabirin Azərbaycan poeziyasını hüşyarlığa aparan, şeir yolu ilə gedənlərə "yol göstərən" şeir dünyası bir daha göstərir ki, hər iki şairin məqsədi eynidir. Şəhriyarın öz təbiricə "elin dərdini söylər dilidirlər", qaranlıqda el məşəlidirlər, "ədəbiyyat gülüdürlər!".

Azərbaycan xalqının fəxri olan iki dahi şairin, həm Sabirin, həm də Şəhriyarın şeirləri İranda, Azərbaycanda, Türkiyədə, İraqda, Orta Asiyada geniş yayılmış, o taylı bu taylı Azərbaycanın hüdudlarını aşaraq, dünyanın azərbaycanlılar yaşayan bütün ölkələrində XX əsrdə yaranmış yeni və qüdrətli sənət əsərləri kimi sevilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Məhəmmədhüseyn Şəhriyar. "Yalan dünya" kitabına ön söz əvəzi. Azərbaycan Ensiklopediyası nəşriyyatı, B., 1993, s.6.

2. Seyid Məhəmmədhüseyn Şəhriyar. Divan. c.IV.Tehran 1332 (müqəddimə); eləcə də ("Əfsaneyi-şəb (farsca), Tehran, 1336 (1957), s.5.

3. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004.

T.Новрузов

За единство цели

Резюме

В статье говорится о гигантских лицах Азербайджанской литературы XX века Сабира и Шехрияра. Напоминается об их сходстве друг с другом.

T. Novruzov

The Same Purpose

Summary

In this article it is spoken about outstanding thinkers of Azerbaijan literature Sabir and Shahriyar. Their relations and similarities are reminded.

Klassik irsə müasir yanaşmalar

Ramin Əhmədov
filologiya üzrə fəlsəfə doktoru, dosent

Bu gün ayrı-ayrı dünya ölkələri arasında bütün istiqamətlərdə əlaqə, yaxınlaşma, universal dialoq, qarşılıqlı təsiretmə tempi mövcuddur. Bu temp "Qloballaşma" (dünyəviləşmə), "Avropaya inteqrasiya", "Avrasiya" terminləri ilə artıq çoxsaylı milli dillərin leksikonunda möhkəmlənərək populyarlaşmışdır. Təəssüf ki, bu dünyəviləşmə qarşılıqlı inteqrasiyadan daha çox, Şərqin Qərbə meyli, Qərbin də Şərqə təsiri istiqamətində daha çox özünü göstərir. Balans pozulur. Əlbəttə, bu təsiretmədə və təsirlənmədə Qərbin elmi-texnoloji yeniliklərinin, elektron cihazlarının üstünlüyü inkaredilməzdir. İnternet zəmanəsinin sivilizasiyası spesifik anlayışların əhatəsində baş verdiyi üçün bu qloballaşmanın xarakteri tamamilə özünəməxsusdur. Ona görə də çağdaş tədris prosesi bu elektron texnologiyasının iştirakı ilə təlimin bu gün dəbdə olan interaktiv metodun tələbləri ilə həyata keçirilməsini zəruri edir. İnteraktivliyin intensivləşmə, əks əlaqə, problem situasiya kimi prinsipləri fənlərin tədrisində yeni tipli texnologiyalardan daha məharətlə istifadəetmə mexanizmini ortaya atır.

Bu istiqamətdə aparılan təlimin uğurlu nəticəsi, ilk növbədə götürülən mövzunun aktuallığından və universallığından asılıdır. Bu mənada 200 illiyini qeyd edəcəyimiz M.F.Axundov yaradıcılığının Şərq-Qərb kontekstində öyrədilməsi xüsusi elmi-metodoloji aktuallıq kəsb edir. Çünki bu mövzu məzmunca zəngin, informativ, universal, həm də düşündürücüdür.

Azərbaycanın Avropaya, o cümlədən Avropalaşmış Rusiyaya inteqrasiya meyli hələ çoxdan – iki-üç əsr əvvəldən başlamışdır. Akademik F.S.Qasımzadənin də dediyi kimi, "XVIII əsrin ikinci yarısında yaşamış qabaqcıl dövlət xadimi qubalı Fətəli xanın və Qarabağ xanlığının xarici işlər vəziri məşhur şair Vaqifin Rusiya oriyentasiyasına böyük əhəmiyyət verdikləri tarixdən bizə məlumdur" (1.səh.11). Arazın Şimal hissəsi – bugünkü müstəqil Azərbaycan əslində XIX yüzilliyin əvvəllərindən Avropaya inteqrasiya mərhələsinə daxil olmuşdur. Rus-İran savaşlarından sonra, xüsusilə də "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələrindən sonra bu proses sürətlənirdi.

Qərb mədəniyyəti də öz müsbət təsiri etibarı ilə sınaqdan çıxırdı. M.C.Topçubaşov, M.Kazımbəy, A.Bakıxanov, M.F.Axundov kimi Azərbaycanın universal zəka sahiblərinin yetişməsində bu proqressiv xəttin əvəzsiz rolu olmuşdur. Bu ziyalılar həmin əsrdəki mədəni-mənəvi təsirin nəticəsi kimi yetişərək həm özləri məşhurlaşmışlar, həm də bu yolu inkişaf etdirmişlər. Onlar yiyələndikləri qabaqcıl Avropa mədəni-mənəvi faktorları ilə mənsub olduqları xalqın müasirləşməsi yolunda əvəzsiz xidmətlər göstərmişlər.

Məhz M.F.Axundovun yaradıcılıq portreti həmin sosial-mədəni inteqrasiya prosesinin real mənzərəsini əks etdirməyə ən gözəl misaldır.

M.F.Axundov öz dövründə Avropaya inteqrasiya mahiyyətinin anlaşıqlı dərkində tarixi rolu olan nümunəvi şəxsiyyətdir. Şərqin dünyaya bəxş etdiyi nadir dühalardan olan M.F.Axundov "ləngərli, ağır yerişli Şərq karvanından sürətli Qərb qatarına əyləşərək" millətini, türk müsəlman aləmini irəliyə aparmaq naminə ömrünün sonunadək mübarizəyə qoşuldu. Hətta o, mədəni geriliyimizdən əsəbiləşərək cəmiyyətdə bütün sahələrin dəyişdirilməsi, bizi Avropa mədəniyyətindən təcrid edən bir sıra təsisatların aradan qaldırılması üçün üsyan etdi, əski ərəb əlifbasının yeniləşməsi uğrunda mübarizəyə qalxdı.

Bu yolda Avropa tipli maarif və mədəniyyəti işıqlı zəka yetişdirməyə yönəldən M.F.Axundov bədii yaradıcılığın məzmun və forma yeniliyini təkidlə irəli sürdü. O, "Gülüstan" və "Zinətül–məcalis" dövrü keçmişdir, bu gün belə əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər - drama və romandır"- deyərək ədəbiyyatın Avropa tipli ədəbi növ və janrlarına üstünlük verirdi və bunların ilkin nümunələrini də özü yaradırdı.

Hələ doğulduğu Şəkidə (Nuxada) yaşayarkən böyük mədəniyyət və elm mərkəzinə – Tiflisə can atan gənc Fətəli ədəbi arzularını əvvəlcə ənənəvi Şərq üslubunda farsca nəzmlə ifadə etməli oldu. "Səbuhi" (Sübh-sabah adamı) təxəllüsündə qələmə aldığı "Zəmanədən şikayət" mənzuməsi ilə ədəbi yaradıcılığa qədəm qoydu. Tiflis siyasi-ictimai mühitinə düşdükdə dövlət qulluğu ilə yanaşı, qaynar Tiflis ədəbi mühiti ilə, eləcə də dünya ədəbiyyatı xəzinəsi ilə yaxından tanış oldu. Hələ 25 yaşında ikən yazdığı "Puşkinin ölümünə Şərq poeması" ("Matəm qəsidəsi") ilə rus və dünya klassiklərinə yaxından bələdliyini nümayiş etdirdi.

Bu mənzumə M.F.Axundovun ədəbi aləmdə Avropaya münasibətinin Şərq-Qərb kontekstində ilkin bəhrəsidir. Fars dilində və üstəlik matəm təziyəsi tipində qəsidə janrında yazdığı mənzumə öz məzmunu, forma və üslubu ilə gənc ədibin artıq özünəməxsus ədəbi-bədii zövqündən və istedadından xəbər verirdi. Axundovun demokratik ruhlu bu rus klassikinə nə qədər dərindən məhəbbət bəslədiyini, ona yaxından bələdliyini, onun məşhurluğunu və xalqı tərəfindən sevildiyini, sələflərindən fərqli daha öndə getdiyini əks etdirən misraları oxuyanda 25 yaşlı əyalət gəncinin istedadına heyran olmamaq mümkün deyildir. Bu əsərin tezliklə müəllifin özünün nəsri (sətri) tərcüməsi ilə Puşkinin öz vətəninə - Moskvaya göndərilməsi və orada "Московскии наблюдатель" jurnalında çap olunub yayılması müsəlman Şərqinin o dövrdə mənəvi-mədəni intibah nişanəsi kimi səs salmışdır.

Millətin sevimli şairinin qətli bütün xalqı ayağa qaldırmış, mütləqiyyəti sarsıtmışdı.

"Ey qatillər əlilə ölən namidar,
Qurtulmadın zamanın qanlı şərindən" (4. səh.339)

misraları ilə quruluşu ittiham edən bu əsər hətta Qafqaz canişini Baron Rozenin "təklifi ilə" Bestujev Marlinski tərəfindən ruscaya tərcümə olunmuş, 1874-cü ildə Adolf Berjenin müqəddiməsi ilə "Русская старина" jurnalında dərc edilmişdir (3. səh.419). Puşkinin ölümünə "Matəm qəsidəsi"nin yazılıb intişar tapması eyni zamanda M.F.Axundovun maarifçi-demokrat kimi qələbəsi idi.

Onun beşcə ildə "bir nəfəsə" yazdığı Avropa tipli altı komediyası Avropa ədəbi-bədii formatında yaranan klassik nümunələr tək bu gün də əvəzsiz bədiilik etalonu kimi dəyərlidir. Bu böyük xoşbəxtlikdir ki, bu komediyalar müəllifin öz sağlığında çap üzü gördü. Komediyaların ilk dəfə "Kafqaz" qəzetində rusca nəşr olunması müəllifi bir daha məşhurlaşdırdı. O zaman milli teatr olmadığı üçün "Müsyö Jordan və dərviş Məstəli şah" əsəri əvvəlcə rus dilində 1851-ci ildə Sank Peterburq səhnəsində oynanılaraq həm müəllifinə, həm də müəllifin mənsub olduğu xalqına böyük şöhrət gətirdi. Tezliklə komediyalar bir sıra Avropa dillərinə tərcümə edilərək xarici teatrşünaslar tərəfindən rəğbətlə qarşılanmışdır. Təsadüfi deyildir ki, M.F.Axundovu komediya yaradıcılığına görə "Şərqin Molyeri" adlandırılmışdır. Qeyd edək ki, öz komediyalarını mənsub olduğu klassisizm ənənələri əsasında yazan bu məşhur fransız dramaturqundan M.F.Axundov öz realist komedioqraf orijinallığı ilə fərqlənir.

Dramatirgiya yaradıcılığı müəllifin Avropa tipli dramatik janr formatını ustalıqla mənimsədiyini və milli-regional ruhun bu teatral kompozisiya strukturunda realistcəsinə təcəssüm tapdığını nümayiş etdirir. Görkəmli estetik-tənqidçi Firidunbəy Köçərli təsadüfi yazmır ki, "Mərhum Mirzə Fətəlinin komediyaları məişətimizin təəccüblü bir aynasıdır ki, zahirimizi də, batinimizi də eyni ilə göstərir" (4. səh.250). Həm də üstəlik bu əsərlər ədibin təkcə mənsub olduğu regionun deyil, avropalılara məxsus etik-əxlaqi xüsusiyyətlərə də yaxından bələdliyini sübut etdi. Ədəbi tənqid yazır ki, ədib "Müsyö-Jordan" komediyasında Parisdən verdiyi təsvirlərin doğruluğu və reallığı ilə parislilərin özlərini belə heyrətə gətirmişdir. M.F.Axundovun Şərq-Qərb konteksində daha yeni ədəbi-tarixi qələbəsi, heç rəsə salırdı" (5. səh.6). Bu baxımdan "Hekayəti-Müsyö-Jordan həkimi nəbatat və Dərviş Məstəli şah..." komediyasındakı təkcə bir faktı xatırlamaq kifayətdir. Hatəmxan ağa qardaşı oğlu Şahbazı başa salır ki, Fransanı görmədən də fransızların adət və xəvasından (xasiyyətlərindən-R.Ə.) xəbərdar olmaq mümkündür. Şahbaz əmisinin sözlərini başa düşməyərək: "Əmi, qanmıram ki, siz necə Paris əhlinin adət və xəvasından xəbərdarsınız?"- deyə heyrətini bildirdikdə Hatəmxan ağa deyir: "Bu saatda mən sənə qandırım, bəlam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Paris əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, onlar başı açıq otururlar; biz başmaq geyirik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alırıq, onlar gizlin alarlar; biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parisdə çox ər almaq".

Müəllif burada vurğulamalıdır ki, bu fraqment, eyni zamanda XIX əsrin ortalarında Şərq və Qərb kontekstində inteqrasiya probleminin yaratdığı mübahisəli və maraqlı mənzərəni də açıqlamağa kömək edər. Hatəmxan ağanın müqayisəsinə diqqət etdikdə görürük ki, indi, parislilərdən fərqli bizim "hər zada inanmağımız"dan (3. səh.71) başqa, bu fərqlərin çoxu aradan götürülmüş və hətta əksinə, yerlər dəyişmişdir. Ona görə də Hatəmxan ağa ilə qardaşı oğlu Şahbazın dialoqu Şərq-Qərb mədəni münasibətləri kontekstində bu gün daha çox komizmlə yoğrulmuş istehza doğurur.

Əsasən məişət motivli bu diloqun arxasında ilk növbədə müəllifin öz gənclik taleyi və vaxtsız dünyasını dəyişmiş oğlu Rəşidin siması dayanır. Avropanın yüksək mədəniyyətini görmək arzusu ilə yaşayan M.F.Axundova yalnız Tiflisdə dövlət məmuru kimi işləmək nəsib oldu. Lakin zəkasının və çalışqanlığının sayəsində Avropada təhsil alanlardan da irəli getdi. Yaşadığı dövrün "40 illik bir mərhələsinin həqiqi ensiklopedisti" adını qazandı. Yeganə oğlu Rəşidi Avropanın tanınmış mədəniyyət mərkəzlərindən birinə - Belçikanın paytaxtı Brüsselə göndərməklə özünün vaxtilə həsrətində olduğu arzusunu həyata keçirməyə müvəffəq oldu. Təəssüf ki, Avropa təhsilli oğul Rəşid ata Mirzə Fətəli ola bilmədi... onun ömrü qısa oldu.

Hatəmxan ağanın sözlərindəki həqiqət məqamlarından biri "Parisə getməsən də onların yaşayışını", xarakterlərini öyrənməyin mümkünlüyüdür. Axundovun özü öz şəxsiyyətində bunu sübut etmişdir. O, Parisə, yaxud başqa bir qabaqcıl Avropa ölkəsinə getməmiş olsa da əsərləri vasitəsi ilə Parisi də, Avropanın digər şəhərlərini Azərbaycana gətirərək öz xalqını Avropa əxlaqı ilə yaxından tanış etmişdir.

Müsbət tərəflərlə yanaşı, zahiri, formal cəhətlərdə inteqrasiya artıqlaması ilə özünü göstərmişdir. Şəhrəbanu xanımın narahatlıqla dediyi: "Şahbaz istəyir getsin Parisə, məclislərdə, yığıncaqlarda üzü açıq gəzən qız, gəlinlər ilə kef etsin, danışsın, gülsün, vəssalam!" (3. səh.71) - sözləri bu gün də gülüş doğurur.

Odur ki, M.F.Axundov dramaturgiyamızın və milli komediyamızın banisidir. Dramatik ədəbi növün Qərb janr formatına görə Axundov Şərqin ilk dramaturqudur. Firidunbəy Köçərli yazır ki, "...qəti surətdə deyə bilərik ki, Qoqol rus və Molyer firəng dram yazanlarının ustad və pişrəvi olduğu kimi, mərhum Axundov da türk-Azərbaycan ədiblərinin və komediyanəvislərinin atası və yol göstərəni olubdur" (4. səh.256).

M.F.Axundovun yaradıcılığı timsalında bu da qeyd olunmalıdır ki, Avropa maarifçiliyinə məxsus janr strukturunda yeni tipli təhkiyənin və novellavari süjetli realist bədii nəsrin "Aldanmış kəvakib" adlı nümunəsi də bu ədib tərəfindən yaradılmışdır. Tarixi xronika əsasında yazılmış bu povest bədii simvolikanın müasirliyini bu gün də qoruyur. Burada nadanlıq təkcə ulduzlara inanmaqda deyildir. Əsl nadanlıq hökmdarın yaltaqlar əhatəsində idarə etməsi və cahil xalqın bu itaətə boyun əymək vərdişidir.

"Kəmalüddövlə məktubları" silsiləsi ilə Axundov artıq Qərb-Şərq bədii təfəkkürünün sintezini yaratmış olur. Fransız, İngilis, Alman maarifçiliyinin təsiri ilə Volterə, Didroya, J.Russoya... məxsus ədəbi-nəzəri və publisistik üslubu milli zəmində nümayiş etdirmişdir. Demokratik-sivil istiqamətdə avropalaşmanı həyata keçirmək arzusunda olan mütəfəkkir bu sahənin də ilk tənqidçi-nəzəriyyəçisi oldu. Avropa fəlsəfi, ədəbi-estetik fikrinə yaxından bələdliyi onun Azərbaycan ədəbi tənqid janrı sahəsində ilk və yeganə şəxs kimi təməlini qoyduğu dramaturgiyanın ilk kamil tənqidçi-nəzəriyyəçisi tək tanınmasına səbəb olmuşdur.

Böyük mütəfəkkir "soyuq" bədii zəka ilə düşünən və düşündürən realist sənət nümunələri ilə yanaşı, elmi-nəzəri təfəkkürün ədəbi-tənqidi məhsullarını, məqalə və məktublarını yazdı. O, dünya nəzəri-estetik fikrində ilk dəfə olaraq şeirlə nəzmin fərqinə diqqət yetirərək bu barədə bədii faktlarla nəzəri mülahizələrini söyləmişdir. Şərqi və Qərbi təmsil edən dünya klassiklərindən gətirdiyi bədii nümunələr əsasında şeirin "əlahiddə allah vergisi olduğunu" söyləmiş, mənasız nəzmi, yaxud şeir adına qafiyə quraşdıranları tənqid etmişdir.

M.F.Axundov forma və məzmun kateqoriyasından çıxış edərək yazarların dörd tipini göstərmişdir. Bədii əsərlərdə məzmun və forma gözəlliyini vacib estetik tələb kimi irəli sürən ədib bu baxımdan Homer və Firdovsini, Nizami və Şekspiri, Hafiz və Sədini nümunə gətirir. Mollayi Ruminin məsnəvisini məzmunca qəbul etsə də, forma-sənətkarlıq baxımından bəyənmir, Qaaninin şeirlərini isə əksinə, formaca məqbul hesab edir, məzmunca sönük olduğunu bildirir. Özünü "Şairlər günəşi" adlandıran İran saray şairi Süruşun qəsidələrini isə həm məzmun, həm də formaca çox zəif, "kəsalət artıran" nəzm kimi tənqidifşa edir.

Dahi dramaturq bədii ədəbiyyatın ədəbi növ və janr anlayışlarının ideya-estetik əhəmiyyətini dərindən başa düşdüyü üçün güldən, bülbüldən, yaxud yorucu nəsihətdən bəhs edən köhnə janr formalarının yaramadığını, əvəzində insanların bir başa qəlbinə və zehninə təsir edən, operativ, canlı janrların zəruriliyini təkidlə bildirmişdir. "... İndi xalqa dram və roman lazımdır"-deyərək mənsub olduğu xalqının mədəni-mənəvi tərəqqisində janrın rolunu xüsusi vurğulamışdır.. Resenziya, risalə və məktubları onun Aristotel, Bualo, Hegel, Lessinq, Belinski, Çernışevski... kimi filosof-estetiklərlə yanaşı durduğundan xəbər verir.

M.F.Axundov kimi hərtərfli bir şəxsiyyət haqqında danışarkən qeyd edilməlidir ki, bu böyük insanın həyat və fəaliyyət yolu yurdunu, xalqını sevən bu günkü gənclik üçün əvəzsiz örnəkdir. Yüksək vətənpərvərlik hissi ilə Səməd Vurğunun dediyi kimi: "M.F.Axundov o medallı və paqonlu mundiri içində böyük bir ürək gəzdirirdi, bu ürək onun xalq üçün azadlıq və səadət axtaran ürəyi idi" (9). M.F.Axundovun anadan olmasının 200 illiyinin qeyd edilməsi də, bu sözləri bir daha təsdiq edir.

İstifadə edilmiş ədəbiyyat

1. Qasımzadə F. M.F.Axundovun həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1962, s.11.
2. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II c. Bakı, AEA nəşri, 1960, s.12.
3. M.F. Axundov. Əsərləri. Üç cilddə. I cild, Bakı, 1958, s.339.
4. F.Köçərli. Seçilmiş əsərləri. Bakı, AEA nəşri, 1963, s.250.
5. M.Arif. M.F.Axundovun komediyaları. Seçilmiş əsərləri. III cild, Bakı: Elm, 1958, s.6.
6. C.Cabbarlı. Əsərləri 4 cilddə. II c., Bakı: Şərq-Qərb, 2005, s.214-225.
7. "Azərbaycan" qəzeti, 23 noyabr 1990.
8. Словарь литературоведческих терминов. М.Просвещение. 1974, с. 70-72.
9. S.Vurğun. M.F.Axundov bizimlədir. "Ədəbiyyat qəzeti", 1939, № 1.

Р.Ахмедов

Классическая тематика и ее современные осмысление

Резюме

В настоещей статье основное внимание направлено на творчество. М.Ф.Ахундова, чьи призведения создают новый подход, новое восприятие азербайджанской литературы и поэзии.

R.Ahmadov

Modern Approaches to Classic Heritage

Summary

In this article the main attention was given to the famous Azerbaijan writer M. F. Akhundov's literary activity and new approaches to his works are emphasized.